1_Layout 1 29.09.2021 13:07 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 18 (608)

30 sentyabr 2021-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


## Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə ehtiram əlaməti olaraq Bakıda yürüş keçirilib

Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlarımıza və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq sentyabrın 27-də - Anım Günündə Bakı şəhərində yürüş təşkil edilib.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, gənc kursantlar və hərbçilər Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan igidlərimiz, itkin düşən hərbçilərimiz və Ermənistan dövləti tərəfindən törədilən insanlıq əleyhinə və müharibə cinayətləri nəticəsində qətlə yetirilən mülki əhalimizin hər birinin fotolarından ibarət plakatlarla yürüş edərək xalqın birliyinin daimi və sarsılmaz olduğunu, Vətənə sevgi, şəhidlərimizə ehtiramın əbədiliyini bir daha nümayiş etdiriblər.



Dövlətimizin başçısı yürüşdə şəhid Adil Asəm oğlu İbrahimlinin fotosu əks olunmuş plakatı aparırdı. Müdafiə Nazirliyinin hərbi hissəsinin zabiti, baş leytenant Adil İbrahimli 2020-ci il noyabrın 7-də Xocavənd rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı həlak olub. O, Şuşa istiqamətində aparılmış döyüş əməliyyatlarında xüsusi tapşırıqların yerinə yetirilməsində şəxsi igidlik göstərib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Adil İbrahimlini "Vətən Müharibəsi Qəhrəmanı" adı, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edib.

Birinci xanım Mehriban Əliyeva isə yürüşdə şəhid Narin Teymur qızı Xalıqovanın fotosu əks olunmuş plakatla irəliləyirdi. Narin Xalıqova 2019-cu il dekabrın 17-də Gəncə şəhərində doğulub. Ailənin tək övladı olan Narin 5 illik həsrətin sonunda dünyaya göz açmışdı. Narin Xalıqova 2020-ci il oktyabrın 17-də Ermənistan silahlı qüvvələrinin Gəncəni raket atəşinə tutması nəticəsində anası Sevil Əsgərova, həmçinin, yaxın qohumları Suliddin Əsgərov, Bəxtiyar Əsgərov, Nigar Əsgərova ilə birlikdə həlak olub. Nazirlər Kabinetinin qərarına əsasən Narin Teymur qızı Xalıqovaya şəhid statusu verilib.

Neftçilər prospektindən başlayan yürüş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təməli qoyulan Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinədək davam edib. Yürüşdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin və Bakı qarnizonunda yerləşən hərbi hissələrin 3000 nəfərdən çox kursant və hərbi qulluqçusu iştirak edib.

Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-dən başlayan Vətən müharibəsi zamanı xalqımız işğal altındakı torpaqlarını azad etmək uğrunda dəmir yumruq kimi birləşərək dövlətimizin düşmənə layiqli cavab verməsinə nail oldu. Xalqımız Vətənin müdafiəsi və torpaqlarımızın düşmən işğalından azad edilməsi uğrunda birliyin gücünü bütün dünyaya nümayiş etdirdi. Azərbaycana, onun xalqına layiqli övlad olmağa, daim Vətənin keşiyində cəsarətlə dayanmağa and içən gənc kursant və hərbçilər ərazi bütövlüyümüz uğrunda şəhid olan soydaşlarımızı dərin ehtiramla anır, Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun tarixi zəfərini şərəflə xatırlayırlar.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsi zamanı 2907 nəfər şəhid olub, 7 nəfər itkin düşüb, Ermənistanın dinc əhaliyə qarşı cinayətləri nəticəsində həlak olan 94 mülki şəxsə şəhid statusu verilib. Düşmənin hədəf aldığı Gəncə şəhərinin, Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Goranboy, Tərtər rayonlarının dinc sakinləri əzizlərini, evlərini itirsələr də, ən ağır günlərində Vətən uğrunda əzmkarlıq və birlik nümayiş etdiriblər.

44 günlük Vətən müharibəsində ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, haqq və ədalətin bərpası naminə Azərbaycanda əsrlər boyu sülh və əmin-amanlıq şəraitində yaşayan müxtəlif millətlərin və dinlərin təmsilçiləri iştirak ediblər. Qarabağ müharibəsi Azərbaycan cəmiyyətinin fərqli dini və etnik-milli mənsubiyyətinə baxmayaraq həmrəy olduğunu bir daha nümayiş etdirdi. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində bizə zəfər sevincini yaşatdı və Azərbaycanın qürur tarixini yazdı.

Vətən müharibəsi Azərbaycan gənclərində torpaq, Vətən sevgisinin nə qədər böyük olduğunu bir daha nümayiş etdirdi, xalqımız Ali Baş Komandan İlham Əliyevin ətrafında yumruq kimi birləşdi. "Dəmir yumruq" hərbi əməliyyatı zamanı ordumuz düşmənin 30 ilə yaxın müddətdə qurduğu istehkamları, müdafiə xətlərini qəhrəmancasına yararaq irəlilədi.

Anım Günündə Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhid olan əsgər və zabitlərimizin, mülki vətəndaşlarımızın xatirəsinə həsr olunmuş silsilə tədbirlər keçirilib.

Şəhidlərimizin əziz xatirəsi Azərbaycanda fəaliyyət göstərən dini məbədlərdə - Heydər məscidində, Təzəpir məscidində, "Jen Mironosits" pravoslav kafedral kilsəsində, Bakının Avropa Aşkenazi Yəhudi Sinaqoqunda, Ağdam Cümə məscidində, Kəlbəcərdəki Xudavəng məbədində, Laçındakı Ağoğlan məbədində, Şuşadakı Yuxarı Gövhər Ağa məscidində və digər məscidlərdə, kilsələrdə, sinaqoqlarda dərin ehtiramla yad edilib, ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının ruhuna dualar oxunub, dini ayinlər icra olunub, bölgəmizdə və bütövlükdə dünyada əbədi sülhün bərqərar olması üçün dualar oxunub.

Vaxtilə işğal altında olan, düşmən tərəfindən viran edilən torpaqlarımızda müzəffər Azərbaycan Ordusunun tarixi Qələbəsi sayəsində həyat yenidən canlanır, həmin ərazilərə insanlarımızın qayıtması üçün şərait yaradılır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı şəhəri, 8 Noyabr prospektində Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinin təməlqoyma mərasimində iştirak etdilər.

Dövlətimizin başçısı və birinci xanım Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməlini qoydular.

Təməlqoyma mərasimindən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Xatırladaq ki, Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinin yaradılması tapşırılmışdı.

Ötən müddət ərzində Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinin layihəsi hazırlanıb. Layihəyə əsasən, kompleksin ərazisində torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə muzeyin yaradılması nəzərdə tutulur. Muzey kompleksində Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin azadlığı uğrunda mübarizə aparan əsgər və zabitlərin igidliyini, xalqın əzmini bir daha nümayiş etdirəcək. Kompleks park ilə əhatə olunacaq.

Yerli vaxtla saat 12:00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Təməlqoyma mərasimindən sonra Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Dənizkənarı bulvar ərazisinə gələrək qəhrəman şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Xəzər dənizinin sahil sularında sıralanan hərbi gəmilərdən fasiləsiz fit səsi verildi, yaylım atəşi açıldı.

**AZƏRTAC**

## POLİS AKADEMİYASININ YARANMASININ 100 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB

Sentyabrın 22-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasının yaranmasının 100 illiyi münasibətilə Polis Akademiyasında təntənəli mərasim keçirilib.

Tədbirin əvvəlində Ümummilli Lider Heydər Əliyevin, respublikanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə və xidməti vəzifələrini yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının və Daxili Qoşun hərbi qulluqçularının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Nazir, general-polkovnik Vilayət Eyvazov Polis Akademiyasının təsis edilməsinin 100 illik yubileyi münasibətilə onun şəxsi heyətini, məzunlarını, veteranlarını təbrik edib.

Akademiyanın keçdiyi şərəfli yola nəzər salan V.Eyvazov bildirib ki, 1921-ci ildə milis nəfəri və komandir kadrları hazırlayan məktəb statusunda yaradılmış bu tədris müəssisəsi Akademiya səviyyəsinə qədər yüksəlib, Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə böyük inkişaf yolu keçib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müxtəlif illərdə Akademiyada keçirilən təntənəli mərasimlərdə iştirak etdiyini, zəruri göstərişlər verdiyini, diqqət və qayğısı sayəsində bu təhsil müəssisəsinin maddi-texniki bazasının, tədris prosesinin əhəmiyyətli şəkildə təkmilləşdiyini diqqətə çatdırıb. Müəllim və kursantların istifadəsinə müasir tədris korpusları və texnoloji avadanlıq, yeməkxana və yataqxanalar, idman kompleksi, virtual təlim otaqları, poliqon, zəngin fondu olan elektron kitabxana, xarici dil mərkəzi, konfrans zalı verildiyini vurğulayıb.

Beynəlxalq əlaqələrinin ildən-ilə genişlənərək xarici ölkələrin 20-dən çox xüsusi təyinatlı təhsil müəssisəilə əməkdaşlıq həyata keçirdiyini, tədris prosesində informasiya texnologiyalarından geniş istifadə olunduğunu, xüsusi metodlara və interaktiv təlimə üstünlük verildiyini, kursantlara vətənpərvərlik hissi, zabit qüruru, saf mənəviyyat aşılandığını, bütün bunların mütəxəssis hazırlığını şərtləndirən mühüm amillər olaraq cinayətkarlıqla mübarizədə, ictimai asayişin qorunmasında, insan hüquq və azadlıqlarının müdafiəsində müsbət nəticələrin əldə olunmasına zəmin yaratdığını bildirib.

Azərbaycan polisinin peşəkar, milli ruhda tərbiyə olunmuş, dövlətçiliyə, Vətənə və xalqa sadiq bütöv bir nəslinin ərsəyə gəlməsində Polis Akademiyasının da əhəmiyyətli rolunu xüsusi vurğulayan nazir diqqətə çatdırıb ki, ötən 100 ildə bu təhsil



müəssisəsinin məzunlarının ümumi sayı təxminən 25 min nəfər təşkil edib və bu gün daxili işlər orqanları üzrə şəxsi heyətin 82 faizi ali təhsilli hüquqşünaslardır. Məzunlardan 25 nəfəri ali rütbələrə, 12 nəfəri (6-sı ölümündən sonra) Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Çıxışında professor-müəllim heyətinin qarşısında duran vəzifələrə xüsusi yer verən nazir bildirib ki, onlardan başlıcası Azərbaycanın ali təhsil müəssisələrinin sırasında layiqli yeri olan Akademiyanı, buradakı tədris və təlim prosesini qabaqcıl beynəlxalq təcrübə əsasında inkişaf etdirmək, polisdə xidmətin bütün şərtlərinə cavab verən ixtisaslı kadr hazırlığı fəaliyyətini hərtərəfli dəstəkləmək, kursant və dinləyicilərdə analitik düşüncə tərzi, müasir texnologiyalarla işləmək, ekstremal şəraitdə düzgün qərar çıxarmaq və tədbirlər görmək vərdişi formalaşdırmaq, möhkəm intizamın təməli sayılan hərbi, fiziki və sıra hazırlığını yüksəltmək, hər bir fənnin tədrisi prosesində qanunla müəyyən edilmiş polis funksiyalarının icrasını vətəndaş məmnunluğu prinsipi üzərində qurmağı öyrətmək, zəruri biliklərə və iş metodlarına yiyələndirmək, yeni təsis olunmuş magistratura və doktorantura pillələrində Akademiya, bütövlükdə daxili işlər orqanları üçün elmi potensiallı mütəxəssislər yetişdirməkdir.

Mərasimdə, həmçinin, Polis Akademiyasının rəisi, polis polkovniki Canpolad Daanov çıxış edərək planlaşdırılan və görülmüş işlər, əldə edilmiş nəticələr və qarşıya qoyulmuş vəzifələrin icrası barədə məruzə edib.

Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov əvvəlki illərdə Akademiyaya rəhbərlik etmiş polis veteranlarını da təbrik edərək onlara Akademiyanın 100 illiyi münasibətilə hazırlanmış döş nişanlarını təqdim edib.

Təntənəli mərasim Akademiyaya yeni qəbul olunmuş kursantların andiçmə mərasimi və şəxsi heyətin tribuna önündən keçidi ilə başa çatıb.

**DİN-in Mətbuat xidməti**

2 - 3_Layout 1 29.09.2021 13:00 Page 1



# DÖYÜŞ SINAQLARINDAN LƏYAQƏTLƏ ÇIXAN XÜSUSİ TƏYİNATLI DƏSTƏ

## *Vətən müharibəsində "Qartal"ların başlıca məqsədi düşmənə gözdağı vermək idi*

"Qartal" xüsusi təyinatlı dəstəsi 17074 saylı hərbi hissənin nizam-intizamı, nümunəvi xidməti və yüksək döyüş hazırlığı ilə fərqlənən bölmələrindəndir. Heç təsadüfi deyil ki, cari ilin birinci yarımilinin xidməti-döyüş fəaliyyətinin və hərbi intizamın yekunlarına görə hissənin xüsusi təyinatlı dəstəsi birincilik qazanıb.

İlin bütün fəsillərində, fərqli relyefə məxsus ərazilərdə adına uyğun çevik fəaliyyət göstərmək qabiliyyətinə malik olan dəstənin təlim proqramları digər bölmələrindəkindən fərqlənir. Hərbi qulluqçudan kifayət qədər fiziki güc və möhkəm iradəyə malik olmağı tələb edən məşğələlərə maraqla yanaşan xüsusi təyinatlılar praktiki fəaliyyət zamanı yüksək peşəkarlıq göstərərək, qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlirlər.





Dəstə komandiri mayor Sahib İbrahimov xüsusi təyinatlıların təlimlərindən danışaraq, onların döyüş hazırlığının xüsusiyyətlərini diqqətə çatdırdı: "Xüsusi təyinatlılarla keçirilən məşğələlər zamanı onların hərbi bilik və bacarıqlarını artırmalarına ciddi fikir verilir. Əsas diqqətimizi atəş, fiziki hazırlıq, o cümlədən, silahlı cinayətkarların axtarılması və zərərsizləşdirilməsi üzrə praktiki məşğələlərə yönəldirik. Bundan əlavə, şəxsi heyətin hərbi biliklərinin artırılması məqsədilə digər məşğələlərə də önəm verilir. Belə ki, hər bir xüsusi təyinatlının müxtəlif miqyaslı xəritələrdən, kompas və GPRS qurğusundan fərdi qaydada sərbəst istifadə edə bilməsi, eləcə də mühəndis hazırlığı üzrə müvafiq biliklərə malik olması vacib amillərdəndir".

"Vətən müharibəsində düşmənə gözdağı vermək "Qartal"ların başlıca məqsədi idi" – deyə fikirlərini bildirən dəstə komandiri tabeliyində olan hərbi qulluqçuların döyüş meydanında cəsurluq nümunələri göstərdiklərini xüsusilə vurğuladı. Söylədi ki, ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə düşmənin üzərinə yorulmadan irəliləyən xüsusi təyinatlılardan 5 nəfər şəhid olub, 27 nəfər yaralanıb. Özünün də yaralandığı qızğın döyüşlərdə Daxili Qoşunların ilk şəhidinin məhz 17074 saylı hərbi hissənin xüsusi təyinatlısı gizir Sərxan Abdullayevin olduğunu dedi. Ümumilikdə, şəxsi heyətdən 37 nəfər cənab Ali Baş Komandan tərəfindən mükafatlara layiq görülüb.

Artıq 15 ildir ki, hərbi xidmətdə olan mayor S.İbrahimov bu günə kimi müxtəlif vəzifələrdə xidmət edib. Peşəkarlığını artırmaq məqsədilə 2011-ci ildə Çin Xalq Respublikasında paraşütçülərin təlimi üzrə, Türkiyə Respublikasında 2013-cü ildə jandarm zabit komando təməl, 2014-cü ildə isə xüsusi təyinatlıların hazırlığı üzrə kursları bitirib.

"Əsl xüsusi təyinatlı kimi yetişmək üçün hərbi qulluqçuda hansı keyfiyyətlər olmalıdır" sualını dəstə komandiri belə cavablandırdı: "Xüsusi təyinatlı olmaq üçün hərbi qulluqçu, ilk növbədə, səbirli, dəyanətli, dözümlü və psixoloji durumu sabit olmalıdır. Bu amillərlə yanaşı, hər bir xüsusi təyinatlıda özünə inamın formalaşması əsas amillərdən biridir. Xüsusi təyinatlı istər fiziki, istərsə də təlim-tərbiyəsi baxımından real döyüş şəraitinə yaxın hazırlanmalıdır".



Dəstənin şəxsi heyətinin mənəvi-psixoloji durumunun sabit saxlanılmasında komandirin tərbiyə işləri üzrə müavini kapitan Firat Sadıqovun zəhmətinin olduğunu nəzərimizə çatdıran mayor S.İbrahimov bu istiqamətdə aparılan tərbiyə işi tədbirlərinə də geniş aydınlıq gətirdi. Bölmədə yüksək döyüş hazırlığının qorunub saxlanılması, eləcə də xidmətin nümunəvi təşkil olunub aparılması məhz xüsusi təyinatlıların möhkəm hərbi intizamına söykənir. Bu baxımdan dəstənin qarşısına qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi xüsusi təyinatlıların ahəngdar birgə fəaliyyətindən çox asılıdır. Kapitan F.Sadıqov şəxsi heyətlə aparılan tərbiyə işi tədbirlərinin əsas məqsədinin dəstədə hərbi intizamın möhkəmləndirilməsi, hərbi-vətənpərvərlik əqidəsinin aşılanması və döyüş ruhunun yüksəldilməsi, kollektivdə yoldaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsindən ibarət olduğunu vurğuladı.

**baş leytenant**
**Nigar Ağayeva**

# NÖVBƏTİ METODİKİ-TƏLİM TOPLANIŞI KEÇİRİLİB

Sentyabrın 21-22-də Ali Hərbi Məktəb rəisinin, hərbi hissə komandirlərinin 1-ci müavinləri-qərargah rəisləri və MTT üzrə müavinləri ilə 99713 saylı hərbi hissənin təlim mərkəzində metodiki-təlim toplanışı keçirilib.

Bununla əlaqədar, ilk olaraq, müvafiq sənədlər və qiymətləndirmə cədvəlləri hazırlanıb, məşğələ rəhbərləri ilə metodiki-təlimat məşğələsi keçirilib, müvafiq tapşırıqlar verilib. Metodiki-təlim toplanışına 31 nəfər hərbi qulluqçu cəlb olunub.





Məşğələlər cədvəlinə uyğun olaraq, bölmələrin idarə edilməsi, qərarın qəbulu, sülh və müharibə dövründə hərbi hissədə təminatın təşkili, qoşun təsərrüfatının aparılması qaydaları mövzularında məşğələlər keçirilib.

Bundan əlavə, təlim toplanışının iştirakçılarından atəş hazırlığı üzrə avtomatdan, fiziki hazırlıqdan yaş qrupları üzrə 1, 5, 7, 8 və 9 nömrəli normativlərdən, Silahlı Qüvvələrin Ümumqoşun Nizamnamələri və rəhbər sənədlərin tələbləri üzrə məqbullar qəbul edilib, nəticələri barədə müvafiq qeydlər aparılıb.

Toplanışın yekununda il ərzində müxtəlif yoxlamalar zamanı qərargah və maddi-texniki təminat xidmətləri üzrə aşkar olunmuş nöqsanların səbəbləri müzakirə edilərək, toplanış iştirakçılarına idarəçilik fəaliyyətləri, döyüş hazırlığının yüksək səviyyədə saxlanılması, hərbi intizamın möhkəmləndirilməsi, hərbi hissədə qoşun təsərrüfatının təşkili istiqamətlərində kəsərli tədbirlər görülməsi barədə tapşırıqlar verilib.

**kapitan Xədicə Hacızadə**

# XÜSUSİ HƏMLƏ YARIMQRUPLARI VƏ SNAYPER KOMANDALARI ARASINDA YARIŞLAR KEÇİRİLİB

Sentyabrın 14-dən 16-dək hərbi hissələrin xüsusi təyinatlı dəstələrinin xüsusi həmlə yarımqrupları və snayperləri arasında xüsusi-taktiki hazırlıq üzrə yarışlar keçirilib.

Bu barədə məlumat verən Daxili Qoşunların Baş İdarəsində Qərargahın Əməliyyat və döyüş hazırlığı İdarəsinin döyüş hazırlığı şöbəsində xüsusi təyinatlı bölmələrin hazırlığı üzrə baş zabit polkovnik-leytenant Tural Novruzov bildirib ki, yarışlara Daxili Qoşunların 99713, 67987, 17072, 25033, 17074, 16073, 17071 və 16075 saylı hərbi hissələrinin xüsusi təyinatlı dəstələrinin xüsusi həmlə yarımqrupları və snayper komandaları cəlb olunublar: "Ümumilikdə, 100 nəfər hərbi qulluqçunun iştirak etdiyi yarışlar zamanı yüksək mənəvi-psixoloji dayanıqlıq, fiziki dözümlülük, hərbi intizam və birincilik uğrunda mübarizə səyləri nümayiş etdirilib. Həmçinin, heç bir pozuntu halına yol verilməyib".

Polkovnik-leytenant T.Novruzov qeyd edib ki, xüsusi həmlə yarımqrupları arasında yarışın proqramına uyğun olaraq, xüsusi taktiki hazırlıq, fiziki hazırlıq, atəş hazırlığı, hərbi topoqrafiya üzrə, həmçinin, snayper komandaları arasında snayper hazırlığı, atəş hazılığı üzrə, eləcə də istehkamçılar tərəfindən imitasiya vasitələrindən istifadə edərək partlayıcı vasitələrin quraşdırılması, xüsusi tapşırıqların icrası üzrə komanda üzvlərinin, ümumilikdə, komandaların praktiki vərdişləri yoxlanılıb və müvafiq qaydada qiymətləndirilib. Keçirilən yarışların nəticələrinə görə 99713, 16075, 16073, 17072 saylı hərbi hissələrin xüsusi həmlə yarımqrupları və snayper komandaları xüsusilə fərqləniblər.

Xüsusi-taktiki hazırlıq üzrə yarışların ümumi nəticələrinə görə hərbi hissələr üzrə xüsusi təyinatlı dəstələrin xüsusi həmlə yarımqrupları arasında 99713 saylı hərbi hissə ən yüksək bal toplayaraq birinciliyi qazanıb. 16075, 16073 saylı hərbi hissələr müvafiq olaraq ikinci və üçüncü yerlərə layiq görülüblər.



Yarışlar zamanı, həmçinin, snayperlərin atıcılıq vərdişləri və snayper hazırlığı da yoxlanılıb. Ümumi nəticələrə görə 99713, 16075 və 17072 saylı hərbi hissələr digər komandalara nisbətən daha yüksək nəticələr əldə ediblər.

**kapitan Xədicə Hacızadə**

# XİDMƏTİ İTLƏRİN YETİŞDİRİLMƏSİ, SAXLANILMASI VƏ ONLARIN TƏYİNATI ÜZRƏ İSTİFADƏSİNƏ XÜSUSİ DİQQƏT YETİRİLİR

Məlumdur ki, ölkədəki daxili sabitliyin sadiq keşikçisi olan Daxili Qoşunlara həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi zamanı xidməti heyvanlardan da istifadə olunur. Bu baxımdan onların yetişdirilməsi, saxlanılması və təyinatı üzrə istifadə olunması əsas diqqət yetirilən sahələrdən biridir.

Daxili Qoşunların xidməti itlərin yetişdirmə məntəqəsində onların yetişdirilməsi, saxlanılma şəraiti, təlimi, sağlamlıqlarının qorunması, həmçinin, müxtəlif tapşırıqların yerinə yetirilməsi üzrə onlardan istifadə olunması və xidmətə hazırlanması haqqında məlumat verən Daxili Qoşunların Baş İdarəsində Qərargahın Əməliyyat və döyüş hazırlığı İdarəsinin döyüş hazırlığı şöbəsində xidməti heyvanların hazırlanması üzrə baş zabit polkovnik-leytenant Elbəy Kazımov söylədi ki, silahlı cinayətkarların axtarılması, tutulması, maddi sübut hesab edilə biləcək əşyaların tapılması, silah-sursatın, həmçinin, kustar üsulla hazırlanmış partlayıcı qurğuların aşkar edilərək üzə çıxarılması kimi mühüm tapşırıqlar məntəqənin fəaliyyətinin tərkib hissəsidir. Bu vəzifələr müvafiq hüquqi-normativ sənədlər əsasında yerinə yetirilir: "Şəxsi heyətin xidməti daxili işlər nazirinin "DİN-in Daxili Qoşunlarında xidməti itlərin yetişdirilməsi və xidmətdə tətbiq edilməsi qaydaları haqqında Təlimat"ın və bu təlimatın tələblərinə uyğun DQBİ-nin Qərargahı tərəfindən hazırlanmış "Daxili Qoşunlarda xidməti itlərin saxlanılması və taktiki tətbiqinə dair metodiki vəsait"in tələblərinə əsasən təşkil edilir. Məntəqədə olan xidməti itlər, əsasən, beş istiqamətdə - partlayıcı maddələrin axtarışı və yerinin müəyyən edilməsi, silah-sursatın axtarışı və yerinin müəyyən edilməsi, qarovul və mühafizə xidməti, patrul xidmətinin aparılması, silahlı cinayətkarın axtarılması və tutulması (iz axtarışı) üzrə hazırlanır".





Polkovnik-leytenant E.Kazımov, həmçinin, xidməti itlərin yetişdirmə məntəqəsində hal-hazırda müxtəlif cinslərə mənsub olan 30 xidməti itin saxlanıldığını da qeyd etdi: "Məntəqədə olan xidməti itlərin cins tərkibi müxtəlifdir. Belə ki, onlar alman ovçarkası və Belçika malinosu cinsinə mənsubdur. Məntəqədə olan xidməti itlərlə mütəmadi olaraq təlimlər keçirilir. Bununla yanaşı, ölkəmizdə təşkil olunan beynəlxalq əhəmiyyətli tədbirlər zamanı partlayıcı maddələrin aşkar edilməsi məqsədilə ərazilərin axtarılmasında da xidməti itlərdən müvəffəqiyyətlə istifadə olunur".

O vurğuladı ki, günün nizam qaydalarına uyğun olaraq, gün ərzində xidməti itlərə iki dəfə qulluq göstərilir. Göstərilən qulluğa xidməti itlərin yemlənməsi, suyunun verilməsi, suvarılması, gəzintinin təşkil olunması, daranması və s. daxildir. Qeyd edək ki, xidməti heyvanların sağlamlığının qorunması da vacib şərtdir. Bu baxımdan məntəqədə xidməti itlərin sağlamlığı daim nəzarətdə saxlanılaraq, müxtəlif profilaktik baytarlıq tədbirləri olan vaksinasiya, dehelmintizasiya vaxtlı-vaxtında həyata keçirilir. Onlara gündəlik olaraq baxış keçirilir, müalicə işləri aparılır. Bundan əlavə, 67987 saylı hərbi hissənin tibb xidməti tərəfindən müvafiq plana əsasən, həftədə bir dəfə məntəqənin ərazisində ümumi profilaktik-gigiyenik tədbirlər görülür. Bu tədbirlərin vaxtlı-vaxtında yerinə yetirilməsi olduqca vacibdir.

Xidməti itlərin yemlənməsində yulaf, buğda yarması, 2-ci kateqoriya ət və ya at əti, 2-ci kateqoriyalı əlavə ət məhsulları, heyvan piyi, kartof, tərəvəz, duzdan istifadə olunur.

Polkovnik-leytenant E.Kazımov sonda onu da əlavə etdi ki, qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi xidməti itlərlə keçirilən təlimlərin keyfiyyətindən asılıdır. Bu baxımdan təlimçilərin bilik səviyyəsinin yüksək olması və praktiki təcrübəyə yiyələnmələri başlıca şərtdir: "Hazırlanmış müvafiq proqrama əsasən, təlimçilərin biliklərinin artırılması məqsədilə ixtisas hazırlığı üzrə məşğələlər keçirilir. Əsasən ümumi və xüsusi təlimin keçirilməsinin metodikası tədris olunur. Xidməti itlərin təlimi isə məntəqə rəisinin rəhbərliyi altında manqa komandiri və təlimçilər tərəfindən praktiki olaraq yerinə yetirilir. Sonda təlimçilərdən ayda bir dəfə məqbullar qəbul edilir, onların xidməti itlərlə birgə fəaliyyəti qiymətləndirilir. Bundan əlavə, yoxlamalar zamanı digər hərbi hissələrin kinoloqları ilə praktiki məşğələlər təşkil olunub keçirilir".

**kapitan Xədicə Hacızadə**

3_Layout 1 01.10.2021 9:35 Page 1



*Şəhidlərimiz*

# VƏTƏN TORPAĞINDA İZİ QALACAQ, ELİN YADDAŞINDA ADI YAŞAYACAQ...

Birinci Qarabağ müharibəsi və 44 günlük Vətən müharibəsi danılmaz bir həqiqəti göstərdi ki, düşmənlə döyüşmədən, qan tökmədən onun işğalı altındakı torpaqları azad etmək mümkün deyildi. Hər bir qalibiyyət döyüşçülərin canı və qanı bahasına başa gəlir, milyonların yaddaşında hünər tarixinə çevrilir.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunları 44 günlük Vətən müharibəsində qələbəmiz naminə böyük fədakarlıq göstərib. Döyüş meydanında sinəsini güllə və mərmilərə sipər edən igid hərbi qulluqçularımızı müharibədən aylar keçdikcə daha çox soydaşımız tanıyır, onlarla qürur duyurlar. Şəhid hərbi qulluqçularımızdan biri olan baş çavuş Əhmədov Əsgər Əhmədkişi oğlu şərəfli xidmət və döyüş yolu keçib.

O, 1990-cı il noyabrın 9-da Quba rayonunun Bərqov kəndində anadan olub. Əhmədkişi Əhmədov və Dünə Əhmədovanın qurduğu ailənin sonbeşiyi idi. İki bacısı və bir qardaşı var. Zəhmətkeş ailədə böyüyərək milli-mənəvi dəyərlərimizə bağlılıq ruhunda tərbiyə alıb. Öz ədəbərkanı ilə el-oba arasında hörmət qazanıb. 1997-2008-ci illərdə Quba rayonunun Paşaoba kəndindəki şəhid Mehman Zöhrabov adına tam orta məktəbdə oxuyub.

Paşaoba kəndinin 3 nəfər şəhidi var, onlardan ikisi Birinci Qarabağ müharibəsi zamanı həyatını Vətən yolunda fəda edib, 44 günlük Vətən müharibəsində əbədiyyətə qovuşan isə silahdaşımızdır.

2009-cu ilin yanvar ayında Əsgər müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində hərbi xidmət keçib. 2010-cu ilin iyul ayında hərbi xidmətdən tərxis olunub.

2012-ci ilin dekabr ayında Əsgər Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 67987 saylı hərbi hissədə xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsində manevr qrupunun yarımqrupunda atıcı vəzifəsinə təyin edilib. Sonra xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsinin götürmə qrupunda yarımqrup komandiri vəzifəsinə irəli çəkilib. 2015-ci ilin noyabr ayından 2018-ci ilin dekabr ayınadək 16075 saylı hərbi hissədə xüsusi vasitələrin tətbiqi bölməsində xüsusi vasitələrin tətbiqi qrupunun yarımqrupunda atıcı, eləcə də xüsusi təyinatlı dəstədə xüsusi həmlə qrupunun yarımqrupunda heyət nəfəri vəzifələrində xidmət edib. 2018-ci ilin dekabr ayından 67987 saylı hərbi hissənin şəxsi heyətinin sıralarına qayıdıb. Hərbi hissənin xüsusi təyinatlı dəstəsində xüsusi həmlə qrupunun yarımqrupunda atıcı-qumbaraatan köməkçisi vəzifəsində idi.



O, təyin edildiyi vəzifələrdə öz məsuliyyəti və əzmkarlığı ilə fərqlənərək komandanlığın etimadını doğruldub. Qarşıya qoyulan tapşırıqları vicdanla yerinə yetirib. Təlimlərdə və məşğələlərdə öz peşə hazırlığının artırılması üçün daim çalışıb. Xüsusi təyinatlı məsləyinə ehtiramla yanaşan, xidməti fəaliyyətdə qarşıya çıxan çətinliklərin öhdəsindən bacarıqla gələn, ona təhkim olunmuş silah və xüsusi vasitələrin taktiki-texniki xüsusiyyətlərini mükəmməl bilən, atəş və fiziki hazırlığında öz məharəti ilə seçilən, yoldaşlarına hörmət bəsləyən, onlardan köməyini əsirgəməyən hərbi qulluqçu kimi silahdaşlarının yaddaşlarında qalıb. Nümunəvi xidməti nəzərə alınaraq dəfələrlə mükafatlandırılıb.

Hərbi xidməti dövründə çoxnövçülük yarışlarında uğurla iştirak edərək qalib yerlərə yiyələnib, müvafiq medallarla təltif olunub.

44 günlük Vətən müharibəsi ərəfəsində Əsgər ayrı-ayrı qoşun növlərinin tərkibindəki xüsusi təyinatlı bölmələrin təlim toplanışında iştirak edib, burada taktiki hazırlığının təkmilləşdirilməsinə səy göstərib.

2020-ci ilin sentyabr ayının 27-də erməni işğalçılarına qarşı Vətən müharibəsi başladıqda Əsgərin xidmət etdiyi xüsusi təyinatlı dəstə ön cəbhəyə göndərilərək qarşısına döyüş tapşırıqları qoyulub. Müharibənin ilk günlərindən Əsgər qətiyyətlə döyüşlərə atılıb, düşmənə qarşı cəsurluqla vuruşub. Hərbi qulluqçumuzun döyüş yolu Murovdağ silsiləsi, Füzuli və Cəbrayıl rayonlarının ərazilərindən keçib.

67987 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin atəş təminatı qrupunun snayper yarımqrupunun komandiri, Vətən müharibəsi iştirakçısı baş çavuş Akif Müslümov bildirdi ki, Əsgər vətənpərvər, hərbi anda sadiq, qorxmaz hərbi qulluqçu idi. Xüsusi təyinatlı kimi yüksək döyüş hazırlığına malik olması müharibənin ilk günlərindən özünü büruzə verirdi. Söylədi ki, sentyabrın 27-dən başlayaraq Kəlbəcər rayonu istiqamətində, Murovdağda bir neçə gün ağır döyüşlərdə iştirak ediblər. Həmin vaxt təcavüzkarın ayrı-ayrı postları ələ keçirilib, nəzarətində olan keçidlərə tərəfimizdən tutarlı atəş zərbələri endirilib, o, ciddi itkilərə məruz qalıb.

Xüsusi təyinatlı dedi ki, sonra onları Murovdağ istiqamətindən çıxararaq Füzuli-Cəbrayıl bölgəsinə göndəriblər. Bu istiqamətdə də şiddətli döyüşlər gedib. Düşmənin müdafiə xəttindəki mövqelərini darmadağın etmək, işğaldan azad olunan ərazilərin dərinliyinə doğru irəliləmək və nəzarətə götürülən sahələrdə möhkəmlənərək təcavüzkarın əks-hücumunun, diversiya-kəşfiyyat fəaliyyətinin qarşısını almaq üçün Əsgər və digər xüsusi təyinatlılarımız mətinlik göstəriblər.

67987 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun yarımqrupunda pulemyotçu, Vətən müharibəsi iştirakçısı baş çavuş İxtiyar Hüseynov məlumat verdi ki, Əsgərlə bir qrupda döyüşüb. Onun qeyrətli, iradəli, müharibənin od-alovundan keçərək öz ləyaqətini uca tutan döyüşçü olduğunu vurğuladı. Silahdaşlarının şəhid olması və yaralanmasından Əsgər çox sarsılırdı, bu, qəlbindəki qisas hissini daha da gücləndirirdi. İxtiyar danışdı ki, istər Murovdağ uğrunda, istərsə də Füzuli-Cəbrayıl rayonları istiqamətlərində döyüşlərdə düşmənin artilleriyası və zirehli texnikasının atəşi altında vuruşaraq irəliləyiblər, psixoloji cəhətdən olduqca gərgin anlar yaşayıblar, doğma torpağa sevgi onlara mənəvi güc verib.



Vətən müharibəsi iştirakçısı, qazi, ehtiyatda olan çavuş Fərid Bağırlı qeyd etdi ki, Əsgər kimi hərbi qulluqçunun silahdaşı olmasından qürur duyur. "Biz təkcə silahdaş deyil, qardaş olmuşuq" - dedi. Əsgərin ön cəbhədə həmişə öndə getdiyini, ailəli olduğunu düşünmədən döyüş tapşırığını, nəyin bahasına olursa-olsun, yerinə yetirməyə can atdığını nəzərə çatdırdı. Xatırladı ki, Murovdağ ərazisində olarkən bir qaya yatağında onun və Əsgərin yaxınlığında mərmi partlayışı dalğasının zərbəsindən zədələniblər. Onları həmin təhlükəli yerdən baş leytenant Kamran Kazımov (Vətən müharibəsində şəhidlik zirvəsinə ucalıb) çıxarıb. Belə ki, həmin yer yenidən artilleriya atəşinə məruz qalıb.

Fərid bildirdi ki, Əsgərin son döyüşü oktyabrın 5-də Cəbrayıl rayonu ərazisində, dəmir qüllələr yerləşən sahəyə yaxın mövqedə olub. Düşmənin atdığı minaatan mərmisinin qəlpələri onu ağır yaralayaraq həyatına son qoyub. Bu məlumat digər döyüşçü yoldaşları tərəfindən də təsdiqlənir.

Ancaq onu da qeyd edim ki, 7 oktyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə baş çavuş Ə.Əhmədovun 6 oktyabr 2020-ci il tarixində Füzuli rayonu ərazisində hərbi əməliyyat zamanı partlayışlar və ya qəlpələrlə törənmiş zədələnmələr, baş beynin diffuz travması nəticəsində şəhid olduğu yazılıb.

Şəhid Quba rayonunun Paşaoba kəndinin qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15.12.2020-ci il tarixli, 24.12.2020-ci il tarixli, 24.06.2021-ci il tarixli müvafiq sərəncamları ilə baş çavuş Ə.Əhmədov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Paşaoba kəndində şəhidlərin xatirəsinə kiçik park salınıb, burada onların şəkilləri əks olunan lövhə quraşdırılıb, həmçinin, bulağın açılışı da nəzərdə tutulub.

Əsgər ailə qurmuşdu, Özcan və Ömər adlı övladları onun yadigarlarıdır. Öz ailəsi Sumqayıtda, valideynləri isə Paşaoba kəndində yaşayırlar.

Məqalə üçün məlumatların toplanmasına köməklik edən şəhidin qardaşı Baba Əhmədov söylədi ki, nəinki doğmaları, bütün onu tanıyanlar Əsgərin yoxluğu ilə barışa bilmirlər. Yeganə təsəlli odur ki, Əsgər kimi oğulların fədakarlığı xalqımızı uzun illər həsrətində olduğu torpaqlarına qovuşdurdu.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

*Qazilərimiz*

# "AZAD ETDİYİMİZ TORPAQLARIMIZDA KEÇİRDİYİM HİSSLƏRİ SÖZLƏ İFADƏ ETMƏK MÜMKÜN DEYİL"

Vətən müharibəsində yaralanmış cəsur hərbi qulluqçularımızla görüşüb söhbət edərkən, hər birinin Müzəffər Ordumuzun qalib əsgəri olmalarından böyük qürur hissi keçirdiklərinin şahidi olursan. Daxili Qoşunların Hərbi Qospitalında keçdiyi döyüş yolu xatirələrini bizimlə bölüşən Elşən adlı silahdaşımıza verdiyim "keçdiyin döyüş yolu barədə nə deyə bilərsən" sualıma onun "azad etdiyimiz torpaqlarımızda keçirdiyim hissləri sözlə ifadə etmək mümkün deyil" – deyə fəxrlə söylədiyi ilk fikri kimi. Yüksək döyüş ruhu ilə hərbi əməliyyatlara qatılan silahdaşımızı daha çox məyus edən yeganə amil isə özünün də təəssüflə qeyd etdiyi kimi, sol qolundan aldığı güllə yarası deyil, məlum səbəbdən onun məhz Şuşa döyüşlərində iştirak edə bilməməsidir...

Beləliklə, "Qazilərimiz" rubrikasının sizlərə təqdim etdiyimiz budəfəki qəhrəmanı baş çavuş Novruzov Elşən Nazil oğludur.

Baş çavuş E.Novruzov 1987-ci il noyabrın 18-də Mingəçevir şəhərində anadan olub. Orta təhsilini Binəqədi rayonunda yerləşən və Azərbaycanın Milli Qəhrəmanı Famil İsgəndərovun adını daşıyan 157 saylı tam orta məktəbdə alıb. Müddətli həqiqi hərbi xidmətini 2006-cı ilin oktyabr ayından 2008-ci ilin aprel ayınadək Müdafiə Nazirliyinin Qazax rayonundakı "N" saylı hərbi hissəsində keçib. Tərxis olunduqdan sonra bir müddət mülki işdə çalışıb. Lakin hərbi xidmətə olan böyük marağı səbəbindən yenidən ordu sıralarına qayıtmağa qərar verib. Beləliklə, 2011-ci ilin iyul ayından Daxili Qoşunların 16073 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 2012-ci ilin iyul ayından 16075 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində xidmətini davam etdirən baş çavuş E.Novruzov əvvəlcə xüsusi kəşfiyyat qrupunda kəşfiyyatçı, 2014-cü ilin sentyabr ayından yaralandığı günədək isə xüsusi həmlə qrupunda atıcı-snayper kimi vəzifə borcunu ləyaqətlə yerinə yetirib. Xidmət etdiyi dövrdə yüksək döyüş hazırlığı, hərbi intizamı və nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçumuz 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif edilib, eləcə də hərbi hissə komandanlığı tərəfindən müxtəlif mükafatlara layiq görülüb. Hobbisinin idmanla məşğul olmaq olduğunu deyən Elşən Daxili Qoşunların birinciliyi üzrə keçirilən silahsız özünümüdafiə, ağırlıq çəki daşlarının qaldırılması və qol güləşi yarışlarında dəfələrlə yüksək nailiyyətlər əldə edərək birinci yeri tutmağa müvəffəq olub.

Vətən müharibəsi başlayanda isə, özünün də qeyd etdiyi kimi, torpaqlarımızı otuz ilə yaxın işğal altında saxlayan, Xocalıda əli günahsız soydaşlarımızın qanına bulaşmış düşmənə qarşı böyük nifrət və intiqam hissi ilə döyüşlərə qatılıb. Baş çavuş E.Novruzov məhz buna görə də Cəbrayıl, Füzuli rayonları, eləcə də Xocavənd rayonunun Hadrut yaşayış məntəqəsi istiqamətlərində aparılan hərbi əməliyyatlarda fəal iştirak edib, vətənpərvər döyüşçü kimi fərqlənib. Atıcı-snayper olaraq döyüş meydanında sərrast atəşilə işğalçı ordunun neçə-neçə yaraqlısını cəhənnəmə vasil edən Elşənin ilk döyüş yolu məhz 2020-ci il sentyabrın 27-də Cəbrayıl istiqamətindən başlayıb: "Şəxsi heyət hər biri on-on iki nəfərdən ibarət olan ayrı-ayrı qruplara bölünmüşdü. Dəstə komandirimiz mayor Ələsgər Muxtarovun rəhbərliyi altında axşam saatlarında hücuma başlayan qrupumuz Arazboyu ərazilərdən Füzuli rayonu istiqamətinədək uğurlu döyüş yolu keçərək, düşmənin strateji mövqelərini ələ keçirməyə müvəffəq oldu.

Hər qrupun qarşısına müəyyən tapşırıqlar qoyulmuşdu. Biz dərə-təpə ərazilərlə dayanmadan irəliləyir, düşməni darmadağın edərək, mövqelərini ələ keçirirdik. Müvafiq tapşırığa uyğun, gecənin qaranlığında düşmən postlarını alarkən, ermənilərin orada olduğumuzdan xəbərləri belə olmurdu. Başını itirmiş düşmən bizdən sol tərəfi - Arazqırağı bölgələri, həmçinin, arxa istiqaməti artilleriyadan və müxtəlif iriçaplı silahlardan atəşə tuturdu. Təbii ki, düşmənin üzərimizə yağış kimi yağdırdığı mərmilərdən yaralanan və şəhid olan silahdaşlarımız da olurdu. Bu baxımdan oktyabrın 3-də Cəbrayıl istiqamətində baş verən döyüşlərdə bizim qrupdan şəhid və yaralanan olmasa da, digər qruplarımızın tərkibində vuruşan cəsur silahdaşlarımızdan kapitan Türkay Hüseynli, çavuş Elvin Məmmədov və MAXE əsgər Ayaz Abasov şəhid oldular, baş çavuş Əhməd Cahangirli, çavuşlar Orxan İbrahimov və Kamal Məmmədli isə ağır yaralandılar. Bunlar müharibənin bizim qəlbimizi yaralayan acı xatirələri, yaddaşımızda silinməz iz buraxan amansız üzü idi və bu kimi hadisələrdən üzülməmək mümkün deyildi.



Əlbəttə, şəhid və yaralılarımızın heç birini döyüş meydanında qoyub getmirdik. Onların hamısını geriyə, təxliyyə qruplarına təhvil verəndən sonra düşməndən intiqamımızı almaq üçün yenidən irəliləyirdik.

Oktyabrın 6-da qrupumuza birgünlük istirahətin verilməsi ilə bağlı əmr almışdıq. Bu məqsədlə, tutduğumuz mövqeləri digər qruplara təhvil verib, geri dönməli olduq. İstirahət edəcəyimiz məkan Füzuli rayonu ərazisində bir zamanlar mövcud olmuş köhnə hərbi hissə idi. Gecəni burada qaldıqdan sonra, oktyabrın 7-də axşam təxminən saat 23-də döyüş planına uyğun olaraq hərəkətə başladıq. Gecədən başlayaraq səhər saat 7-yə kimi gizli bir şəkildə, ermənilərin xəbəri belə olmadan səngərlərindən keçməklə, strateji baxımdan əlverişli mövqedə yerləşən və təxminən 1500 metr hündürlüyü olan yüksəkliyi tutduq. Düşmən səhər gözünü açanda bizi orada görüb təşvişə düşmüşdü. Oradan qaçanları qaçdı, müqavimət göstərmək istəyən erməni əsgərlərinin isə hamısı leş oldu. Axşam həmin strateji yüksəkliyi Müdafiə Nazirliyinin əsasən könüllülərdən ibarət olan digər bir qrupuna təhvil verib, növbəti döyüş tapşırığına uyğun hərəkətə başladıq. Oktyabrın 8-dən 9-na keçən gecə saat təxminən 02:00 radələrində Hadrut istiqamətində azərbaycanlılara aid olan köhnə qəbiristanlığın yanı ilə irəlilədiyimiz zaman qarşımıza düşmənin 9 nəfərdən ibarət kəşfiyyat qrupu çıxdı. Cəld bir şəkildə mövqe tutub, döyüşməyə başladıq və hər birini məhv etdik. Şəxsi heyət arasından 9 nəfər yaralımız oldu. Yaralananlardan biri də dəstəmizdə xüsusi həmlə qrupunun komandiri olmuş kapitan Nadir Şərifov idi. Namərd düşmən gülləsi onu ayağından yaralamışdı. Müdafiə Nazirliyinin qrupumuzun tərkibində vuruşan xüsusi təyinatlı döyüşçüsü, atıcı-sanitar gizir Asiman Allahverdiyev həmin yaralılara ilkin tibbi yardım göstərəndən sonra biz təxminən 300 metrə qədər geriyə çəkilməli olduq. Orada yaralıları təxliyyə qrupuna təhvil verib, yenidən düşməni məhv etdiyimiz əvvəlki mövqeyimizə doğru irəliləməyə davam etdik. Gecəni yaxınlıqdakı təpənin üzərində mövqe tutaraq, iki-iki bölünərək, ərazini saat əqrəbi istiqamətində müşahidə altında saxlamaqla burada qalmalı olduq. Mən atıcı-sanitar gizir A.Allahverdiyevlə eyni mövqedə idim. Səhər saat 8-ə işləmiş döyüş başladı. Qarşımızda olan daha yüksək zirvələrdə mövqelənmiş düşmən olduğumuz ərazini güclü atəşə tutmağa başladı. Təxminən on dəqiqə olardı döyüşürdük, bir də gördüm ki, döyüşçü yoldaşım Asimanı erməni snayper başından vurub. Cəsur silahdaşımız aldığı yaradan elə yerindəcə şəhadətə qovuşmuşdu deyə, ona heç bir ilkin tibbi yardım göstərə bilmədik. Bundan beş-on saniyə keçməmiş, mən özüm də sol qolumdan snayper gülləsinə tuş gəldim. Bir anlıq şok keçirdim, nə hadisə baş verdiyini anlaya bilmədim. Düşmən gülləsi biləyimdən girib, dirsək nahiyəmdə qalmışdı. Elə bildim güllə qayaya toxunduqdan sonra qoluma dəyib. Döyüş iki saata yaxın davam etdi. İki saatdan sonra onlar da çıxıb getmişdilər. Artıq atəş dayanmışdı. Bizim qrupdan 6 nəfər yaralanmışdı. Daxili Qoşunlardan mən, digər 5 nəfər döyüşçü isə Müdafiə Nazirliyinin xüsusi təyinatlıları idi. Oktyabrın 9-u təxliyyə olunduq. Əvvəlcə Füzuli Rayon Xəstəxanasına, orada tibbi yardım göstərildikdən sonra Yevlax Rayon Xəstəxanasına gətirildim. Oktyabrın 16-da burada əməliyyat olundum, qoluma millər qoyuldu. Bir müddət sonra Zərdab Rayon Xəstəxanasına göndərildim. Burada müayinə zamanı qolumda 7,62 mm snayper gülləsinin qaldığını aşkar etdilər. Yenidən əməliyyat olunmağım üçün Göyçay Rayon Xəstəxanasına göndərdilər. Oktyabrın 28-də əməliyyat olundum və qoluma İlizarov aparatı qoydular. Oktyabrın 30-da isə müalicəmi davam etdirməyim üçün məni Bakıya, əvvəlcə Silahlı Qüvvələrin Mərkəzi Kliniki Qospitalına, sonra isə Daxili Qoşunların Hərbi Qospitalına gətirdilər. Həkimlərimizin sayəsində sağlamlığım qismən bərpa olunub. Lakin tam sağalmağım üçün ambulator müalicəmi indi də davam etdirirəm".

Azərbaycan Respublikası Prezidentinin 22.12.2020-ci il tarixli müvafiq sərəncamı ilə baş çavuş Novruzov Elşən Nazil oğlu "Cəbrayılın azad olunmasına görə", həmçinin, Azərbaycan Respublikası müdafiə nazirinin 03.11.2020-ci il tarixli müvafiq əmri ilə "Şücaətə görə" medalları ilə təltif edilib.

16075 saylı hərbi hissədə "Əqrəb" şərti adını daşıyan xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda yarımqrup komandiri, "Cəbrayılın azad olunmasına görə" və "Şücaətə görə" medalları ilə təltif edilmiş gizir Sakin Səfərov (Vətən müharibəsi zamanı Cəbrayıl istiqamətində gedən döyüşlərdə yaralanıb) baş çavuş E.Novruzovu əsl vətənpərvər döyüşçü kimi xarakterizə edərək, dəstənin hər zaman nümunəvi və intizamlı hərbi qulluqçularından biri olduğunu bildirdi.

Şərəfli döyüş yolu keçən qazimizə tezliklə sağlamlığına qovuşmasını arzulayır və bundan sonrakı həyatında ona ancaq uğurlar diləyirik.

**mayor Anar Əhmədov**

4 - 3_Layout 1 29.09.2021 13:05 Page 1



# NÜMUNƏVİ XİDMƏTİLƏ FƏRQLƏNƏN BÖLMƏ



Başlıca vəzifəsi, ümumilikdə, döyüş bayrağının və hərbi obyektlərin etibarlı mühafizəsi və müdafiəsini təşkil etmək olan 17074 saylı hərbi hissənin komendant bölüyünün nümunəvi xidməti barədə məlumat vermək istərdim.

Etibarlı mühafizənin təşkil olunması qarovula cəlb edilən şəxsi heyətin ayıq-sayıqlığından, xidmətin nümunəvi aparılmasına birbaşa təsir edən yüksək döyüş hazırlığından və möhkəm hərbi intizamından asılıdır. Bu baxımdan komendant bölüyündə xidmət edən şəxsi heyət bilik səviyyəsi, fiziki hazırlıqlı, intizamlı, verilən tapşırıqları dəqiq və cəld yerinə yetirmək qabiliyyətinə, eləcə də yüksək döyüş hazırlığına malik olan müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları arasından seçilir. Seçilmiş hərbi qulluqçuların xidmətə hazırlanması və onların təlimatlandırılması mühüm şərtdir.




Bölük komandirinin vəzifələrini müvəqqəti icra edən baş leytenant Ülvi Hüseynzadə bölükdə mövcud olan yüksək döyüş hazırlığını və hərbi intizamı saxlamaqla bərabər, hissə komandanlığının etimadını hər zaman doğrultmaq əzmində olduqlarını bildirdi: “Bizə həvalə edilmiş obyektlərin etibarlı mühafizə və müdafiəsinə nail olmaq başlıca məqsədimizdir. Şəxsi heyətlə keçirilən bütün məşğələlərin və aparılan tərbiyə işinin əsasını da məhz bu təşkil edir. Əldə etdiyimiz müsbət nəticə isə işimizi düzgün istiqamətdə qurmağımızın göstəricisidir. İndi başlıca hədəfimiz qazandığımız etimadı qoruyub saxlamaqdır”.

Döyüş xidmətinin aparılmasında sayıqlığına görə fərqlənən hərbi qulluqçulardan əsgərlər Eldar Musalı, Orxan Həsənov, Qüdrət Qurbanlı və Hüseyn Mirzəyevin adlarını çəkən bölük komandiri onların intizamlı, bacarıqlı hərbi qulluqçu kimi bölükdəki yoldaşlarına nümunə olduqlarını bildirdi.

**baş leytenant**
**Nigar Ağayeva**

# İNTİZAMLI HƏRBİ QULLUQÇU - NÜMUNƏVİ SÜRÜCÜ



Hər birimizə məlumdur ki, istənilən hərbi hissədə döyüş hazırlığının yüksək səviyyədə saxlanılması, verilən tapşırıqların uğurla yerinə yetirilməsini şərtləndirən əsas amillərdən biri avtomobil və zirehli texnikanın məharətlə idarə edilməsidir. Məhz bu səbəbdən şəxsi heyətin, habelə xüsusi yüklərin vaxtlı-vaxtında çatdırılmasında peşəkar sürücü hərbi qulluqçuların rolu böyükdür.

Qəzetimizin bu sayında 99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində sürücü-atıcı əsgər Bəhruz Məmmədov haqqında yazmaq qərarına gəldik. O, 2013-cü ildən bu günə kimi hazırkı vəzifədədir. Dəstə komandiri polkovnik-leytenant Yavər Məmmədov tərəfindən müsbət xarakterizə olunan sözügedən sürücü-atıcı intizamlı, işgüzar və bacarıqlıdır. Xidmət etdiyi bölmənin döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında onun da özünəməxsus rolu var. Qarşısına qoyulan tapşırıqların vaxtında, keyfiyyətli yerinə yetirilməsi üçün əzmkarlıq nümayiş etdirir.

Gündəlik xidmətində rəhbəredici sənədlərin tələblərinə əsaslanır. Öz nəzəri və praktiki biliklərinin, metodiki hazırlığının artırılması istiqamətində daim çalışır. Tapşırıqları vaxtında, düzgün icra etdiyinə, funksional vəzifələrinə məsuliyyətlə yanaşdığına görə dəfələrlə bölmə və hərbi hissə komandanlığı tərəfindən mükafatlandırılıb.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər B.Məmmədov 1993-cü il oktyabrın 2-də Ucar rayonunun Qulabənd kəndində doğulub. Orta təhsilini böyüyüb boya-başa çatdığı Qulabənd kənd Cəsarət Zülfüqarov adına 32 saylı tam orta məktəbində alan Bəhruz həmin məktəbi 2011-ci ildə bitirib. 2011-2013-cü illərdə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 99713 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib.

Xidməti vəzifələrini vicdanla, nizamnamələrin tələblərinə uyğun icra edən hərbi qulluqçumuz şəxsi heyətin hörmətini qazanıb.

**baş leytenant Nigar Ağayeva**

# YEMƏKXANADA BÜTÜN SANİTAR QAYDALARA CİDDİ RİAYƏT OLUNUR




Hərbi qulluqçuların sağlamlığının qorunması, səhhətinin möhkəmləndirilməsi keyfiyyətli qidalanmadan asılıdır. Bu baxımdan şəxsi heyətin yüksək kalorili, keyfiyyətli yeməklərlə qidalanması hərbi hissə komandanlığının daim nəzarətindədir.

16073 saylı hərbi hissədə ərzaq xidmətinin rəisi kapitan Cavad Abdullayev qeyd edir ki, şəxsi heyətin qidalanması müvafiq rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edilir. Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlığının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bu baxımdan hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün bütün lazımi tədbirlər görülür. Şəxsi heyətin qidalanması gündəlik olaraq üç dəfə həyata keçirilir və bu zaman kalorinin düzgün bölüşdürülməsinə xüsusi diqqət yetirilir. Həmçinin, yeməkxanada bütün sanitar qaydalara ciddi riayət olunur. Qidalanmadan sonra bütün qablar iki faizli məhlulla yuyulur. Eləcə də qida şəxsi heyətə təqdim olunmamışdan əvvəl onun keyfiyyəti həkim tərəfindən yoxlanılır. Yeməkxanaya daxil olarkən hərbi qulluqçuların hər birinin temperaturu ölçülür və burada sosial məsafənin qorunub saxlanılmasına önəm verilir. Yeməkxananın döşəməsi xlorlu məhlulla hər gün silinir və dezinfeksiya olunur.

Xidmət rəisi şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə də məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri, həmçinin, müxtəlif meyvə və tərəvəzlərdən ibarət qəlyanaltılar qida rasionuna daxildir. Qış mövsümündə isə kəskin respirator xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə sentyabr ayından başlayaraq şəxsi heyətin qida rasionuna soğan, sarımsaq kimi faydalı tərəvəzlər əlavə olunur. O, şəxsi heyətin qidalanmasının həftəlik bölgü cədvəlinə əsasən aparıldığını da söylədi.

Kapitan C.Abdullayev görülən işlərdə yeməkxana rəisi baş çavuş Siruz Mirzəliyev və aşpaz-təlimatçı kiçik çavuş Əvəz Əliyevin, aşpaz-manqa komandiri baş çavuş Asəf Qədirovun əməyini xüsusilə vurğuladı. Onların qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəldiklərini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün öz vəzifələrini vicdanla yerinə yetirdiklərini diqqətə çatdırdı.

Əlavə olaraq, qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında kurs keçmiş ixtisaslı əsgər aşpazlardan Rüstəm Həsənov, Elvin Yediyarov və Əmiral Rüstəmovun, mülki işçi - aşpazlardan isə Bəsti Məmmədova və Ədilə Məmmədovanın adlarını çəkərək, fəaliyyətlərini müsbət qiymətləndirdi.

**kapitan Xədicə Hacızadə**

# HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR -

## “Tatra” Polşa zirehli maşın bazarına daxil olub

Polşanın Kielçe şəhərində keçirilən MSPO-2021 XXIX Müdafiə və Sənaye Sərgisində yerli “Huta Stalowa Wola SA” (HSW) şirkəti 4×4 təkər formullu MRAP zirehli maşın sinfinin yeni prototipini təqdim edib.



“Poliqon” xəbər verir ki, təqdim olunan model “Zakłady Mechaniczne Tarnow” şirkəti tərəfindən hazırlanmış “ZSMU A5” məsafədən idarə olunan pulemyot döyüş modulu ilə təchiz edilib. Yeni MRAP zirehli maşını, həmçinin, müxtəlif növ silahlar və müasir döyüş modulları ilə təchiz oluna bilər. “Pegaz” proqramı çərçivəsində Polşa xüsusi əməliyyat qüvvələri üçün perspektivli zirehli maşın müsabiqəsində iştirak edəcək, eyni zamanda, artilleriya bölmələrinə idarəetmə və kəşfiyyat vasitəsi olaraq təqdim ediləcək. Bundan başqa, radioaktiv kimyəvi-bioloji müdafiə, patrul, zərbə, komandir və s. maşını olaraq da istifadə edilə biləcək.

## Serbiya İsraildən “Spike LR-2” TƏİR kompleksi almaq istəyir

Serbiyanın Müdafiə Nazirliyi İsrailin “Rafael – Advanced Defence Systems” şirkətinin istehsalı olan “Spike LR-2” tank əleyhinə idarə olunan raket komplekslərini (TƏİRK) almağı planlaşdırır.

“Poliqon” xəbər verir ki, İsrailin “Rafael” şirkətinin rəsmisi Serbiya Müdafiə Nazirliyinin “Spike LR-2” TƏİR komplekslərini almaq üçün İsraillə danışıqlar apardığını təsdiqləyib.



“Spike” raketləri ən son nəsildir və dəzgahdan, zirehli maşından və ya helikopterdən buraxılır. Raketlər bütün müasir tankları və zirehli maşınları məhv etmək imkanına malikdir.

Qeyd edək ki,”Spike” tank əleyhinə raket sistemi hazırda dünyanın 37 ordusu tərəfindən istifadə olunur və indiyədək 30 mindən çox raket istehsal edilib.

Raket daha yaxşı nişanalma sisteminə malikdir və sistemin işində süni intellektdən geniş istifadə olunur.

# NARKOMANİYA İNSANLARI FƏLAKƏTƏ SÜRÜKLƏYƏN BƏŞƏRİ BƏLADIR

Müasir dövrümüzdə hər birimizi düşündürən və narahat edən ən dəhşətli problemlərdən biri də narkomaniyadır.

Narkotik vasitələrdən istifadə ailələrin dağılmasına, cinayətkarlığın artmasına, cəmiyyətdə ən böyük bəlalardan olan QİÇS (Qanda İmmun Çatışmazlığı Sindromu) xəstəliyinə gətirib çıxarır. Narkotik vasitələr insanlarda asılılıq yaratdığı üçün narkotikin vaxtı çatdıqda o mütləq qəbul



edilməlidir. Narkomanın isə narkotik vasitəni almağa pulu olmadıqda o, hər cür vasitəyə, yəni oğurluğa, adam öldürməyə və digər cinayətlərə əl ata bilər.



Bəşəriyyəti düşündürən bu bəla ilə mübarizə sahəsində ölkəmizdə də məqsədyönlü işlər aparılır.

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2019-cu il tarixli Sərəncamı ilə “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı” təsdiq edilib.

Dövlət Proqramından irəli gələn məsələlərin həyata keçirilməsi məqsədilə Daxili Qoşunlarda Azərbaycan Respublikasının daxili işlər naziri tərəfindən təsdiq edilmiş 16.08.2019-cu il tarixli tədbirlər planının müvafiq bəndlərinin vaxtlı-vaxtında icrası təmin olunur.

Şəxsi heyət arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə təbliğat işinin gücləndirilməsi məqsədilə bütün dərəcəli hərbi qulluqçularla hər rüb əlavə məşğələ planlaşdırılıb keçirilir.

Bundan əlavə, Daxili Qoşunların hərbi hissələrinin yerləşdiyi şəhər və rayonlarda hərbi qulluqçular arasında sağlam həyat tərzinin təbliğ olunması məqsədilə səhiyyə, o cümlədən, daxili işlər orqanlarının əməkdaşları ilə görüşlər təşkil olunur, izahedici söhbətlər aparılır.

Bununla yanaşı, hərbi qulluqçuların sağlamlığının qorunmasına xidmət edən maarifləndirmə işlərinin genişləndirilməsi üçün mütəmadi olaraq Daxili Qoşunların tibb xidmətinin həkim hərbi qulluqçuları tərəfindən hərbi hissələrdə tibbi profilaktiki işlər görülür.

Gələcəyimizi məhvə aparan və “ağ ölüm” adlandırılan narkomaniya ilə mübarizə nəinki dövlətin, həmçinin, bu dövlətdə yaşayan hər bir vətəndaşın borcudur.

**Mətbuat xidməti**

# Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı polkovnik Etibar İlyasova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların komandanlığı polkovnik-leytenant Araz Şirəliyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

12318 saylı hərbi hissənin komandanlığı polkovnik-leytenant Nəriman İsayevə **bacısının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16073 saylı hərbi hissənin komandanlığı mayor Elnur Səmədova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17074 saylı hərbi hissənin komandanlığı baş leytenant Mansur Naqdan-Əliyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17074 saylı hərbi hissənin komandanlığı baş gizir Ramin Musayevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000